Aqrar Xidmətlər Agentliyi

# PAYIZLIQ ƏKİN SOVKASI
## (Aqriotis segetum Schiff.)



088-588

axa.gov.az

## Zərərverici haqqında

Payızlıq əkin sovkası Azərbaycanın bütün rayonlarında yayılmışdır. Tırtılları bozumtul torpaq rəngindədir. Uzunluğu 52 mm-ə qədərdir, 6-7 dəfə qabıq dəyişir, torpaqda olan cücərtilər və kök boğazlarını gəmirərək qarğıdalı əkinlərinə böyük ziyan vururlar. Qışı tırtıl mərhələsində axırıncı yaş dövründə keçirir. Qışlayan tırtıllar yazda – mart ayının 2-ci yarısında pupa çevrilir. 15-20 gündən sonra puplardan kəpənəklər çıxıb uçur. Onlar bir neçə gün çiçək nektarı ilə qidalandıqdan sonra alaq otlarının, bitki qabıqlarının üzərinə və ya torpağa tək-tək halda yumurta qoyur. Hər bir kəpənəyin qoyduğu yumurtanın sayı 500-ə qədər olur. Yumurtadan çıxan tırtıllar taxıl, qarğıdalı və bir çox bitkilərin torpağa yaxın olan gövdələrini və kök boğazlarını gəmirərək yeyirlər.

## Mübarizə tədbirləri

- Dərin şum; Alaq otlarına qarşı mübarizə;
- Sahənin bitki qalıqlarından təmizlənməsi;
- Toxumun dərmanlanması;
- Növbəli əkin;
- Cərgəaralarının becərilməsi.

**Təsiredici maddəsi** Bioloji mübarizədə trixoqramma tüfeylisindən və bioloji preparat kimi isə dendrobasilindən, endobakterindən, fitoksibasilindən istifadə olunur. Xlorprifos, Sipermethrin 250 qr/l, Alfa-sipermethrin, Deltamethrin, Lyambda – siqalotrin 50 q/lr.



Yetkin fərd



Zədəsi